# Elektron xidmətlər

## İnternet şəbəkəsi vasitəsilə dövlət və bələdiyyə xidmətlərinin əldə edilməsinin çevik və əlverişli üsuludur



# Электронные услуги

## Быстрый и доступный способ получения государственных или муниципальных услуг через сеть Интернет

Данная памятка издана за счет средств государственной поддержки, выделенных в качестве гранта в соответствии с распоряжением Президента Российской Федерации от 18.09.2013 №348-рп и на основании конкурса, проведённого Грантодателем.

creative commons

Это произведение доступно по лицензии Creative Commons «Attribution-NonCommercial-ShareAlike» («Атрибуция – Некоммерческое использование – На тех же условиях») 3.0 Непортированная.
Распространяется бесплатно.

Автор-составитель: Д.И. Самойлов.
Вёрстка: Е.А.Новаченко.

**Фонд «Центр гражданского анализа и независимых исследований ГРАНИ», 2014.**
614045, Россия, г. Пермь,
ул. Монастырская, 61 (ДЦ «Серго»), оф. 602
Тел.: (342) 211-08-70, 211-08-80, 211-09-90
Сайт: grany-center.org
Эл. почта: info@grany-center.org

Отпечатано в ООО «Типография ДПС»
614022 Пермь, ул. Танкисов, 12.
Тираж 150 экз.

# Elektron xidmətlər

## İnternet şəbəkəsi vasitəsilə dövlət və bələdiyyə xidmətlərinin əldə edilməsinin çevik və əlverişli üsuludur

**Mündəricat:**


Ön söz 3

Dövlət və bələdiyyə xidmətlərinin vahid portalı. 4

Perm diyarının dövlət və bələdiyyə portalı. 8

Perm diyarının vahid tibb portalı. 10

Vergi ödəyicisinin elektron kabineti 13

Perm diyarının məşğulluq xidmətinin İnternet-ofisi 16

Universal elektron kart (UEK) 17

## Ön söz

Müasir insanın həyatı müxtəlif növ elektron servislərinin istifadəsi ilə xarakterizə edilib: biz bank kartlarından istifadə edirik, rabitə salonuna müraciət etmədən mobil telefonunun hesabına vəsait mədaxil edirik, İnternet-mağazalarında alış-veriş edirik. Müasir dövlət yeni tendensiyalardan geri qalmır və öz fəaliyyətində yeni informasiya texnologiyalarını tətbiq etməyə çalışır. Dövlət orqanlarının saytları inkişaf edir, qurumlararası qarşılıqlı elektron əlaqələri tətbiq edilir, qurumların geniş informasiya həcmləri açılır, elektron sənəd dövriyyəsi sistemi qurulur, əhaliyə xidmətlərin təqdim edilməsinin çox funksiyalı mərkəzləri inkişaf edir və s.

Rusiyada dövlət və bələdiyyə xidmətlərinin təqdim edilməsi sahəsində əsas yeniliklərdən biri "elektron xidmətlər" adlı xidmətlərin gündəmə çıxmasıdır.

«Elektron xidmətlər» (və ya «elektron şəkildə xidmətlər») – dövlət və bələdiyyə xidmətlərinin məsafədən İnternet şəbəkəsi vasitəsilə, «evdən çıxmadan» və vaxtınızı növbələrdə itirmədən ən çevik və əlverişli şəkildə əldə edilməsidir.

İnternet şəbəkəsindən istifadə etməklə dövlət və bələdiyyə xidmətlərinin əldə edilməsi aşağıdakı üstünlükləri var:

- vaxta qənaət etmək, çünki sizin üçün dövlət orqanlarında və müəssisələrdə növbədə durmağa ehtiyac qalmayacaq;
- maliyyə vəsaitlərinizə zəruri yol xərclərini çəkmədən qənaət etmək;
- müxtəlif xidmətlər haqqında məlumatı əlverişli və rahat şəkildə əldə etmək;
- dövlət (bələdiyyə) qulluqçuları ilə əlaqələri minimuma endirmək.

Elektron şəkildə xidmətlərin əldə edilməsinə görə əlavə yığımlar tutulmur. Dövlət rüsumunun tutulduğu hallar istisna edilməklə xidmətlər pulsuz təqdim edilir.

Hazırki yaddaş kitabçasında sizin hansı şəkildə yeni elektron xidmətlərinin köməyi ilə İnternet şəbəkəsi vasitəsilə məsafədən dövlət xidmətlərini əldə edə bilərsiniz.

**www.gosuslugi.ru**

## 1 Dövlət və bələdiyyə xidmətlərinin yeni xidmətləri nədir?

Dövlət və bələdiyyə xidmətlərinin vahid portalı Rusiyanın bütün regionlarında fəaliyyət göstərir və federal hakimiyyəti orqanlarının, regional hakimiyyət orqanlarının, yerli özünü idarəetmə orqanlarının göstərdiyi xidmətlərin ümumi elektron resurslarında birləşdirir. Bu vasitə dövlət orqanları ilə əlaqələrin sayını minimuma endirməklə lazımi xidmətlərin məsafədən əldə edilməsinə imkan verir.

Portal federal, regional hakimiyyət orqanlarına, yerli özünüidarəetmə orqanlarına ərizələrin verilməsinin, eləcə də mümkün olmayan bir sıra xidmətlər üzrə nəticələrin əldə edilməsinin yeganə yeridir. Misal üçün, elektron servisin köməyi ilə Rusiyanın Pensiya Fondundakı hesabınız və həmin hesabda olan yığımların vəziyyəti haqqında məlumat almaq, vergi borcu haqqında məlumat almaq və s.. RF-nın Rabitə və Kütləvi kommunikasiyalar Nazirliyinin məlumatına görə, vahid elektron portalında istifadə edə biləcəyiniz daha populyar federal elektron xidmətlər sırasına aşağıdakılar daxildir:

1. Yol hərəkəti sahəsində inzibati xətalar haqqında məlumatların təqdim edilməsi (HHTDM-dən cərimələrin olub-olmamasını);

2. Xarici pasportların rəsmiləşdirilməsi və verilməsi (ərizəni evdən çıxmadan da təqdim etmək olar);

4. Fiziki şəxsin vergi borcu haqqında məlumatın verilməsi (dövlət qarşısında borcunuzun olub-olmamasını müəyyən etmək);

5. Avtonəqliyyat vasitələrinin və onlar üçün olan qoşquların dövlət qeydiyyatını əldə etmək (avtomobili uçota qoymaq olar).

Dövlət və bələdiyyə xidmətlərinin portalı öz iş prinsipinə görə digər saytlara çox oxşayır (sosial şəbəkələr, İnternet-mağazalar), burada da qeydiyyatdan keçmək, «şəxsi hesabınızı» yaratmaq və şəxsi səhifənizdə lazımi məlumatları göstərmək lazımdır. Əgər siz əvvəllər İnternet-mağazalarında alış-veriş etmisinizsə bu halda sizdə dövlət və bələdiyyə xidmətlərinin rəsmiləşdirilməsində problemlər yaranmayacaqdır. Sizə yalnız sizə lazım olduğu müəyyən xidmətin əldə edilməsində tələbatınızı anlamaqdır.

## 2 Həmin elektron servis hansı üstünlüklər verir?

Dövlət və bələdiyyə xidmətlərinin vahid portalının servislərinin istifadəsi aşağıdakılara imkan verir?

- «iki klik»lə xidmətlərin təqdim edilməsinin proseduru və nəticələri haqqında bütün lazımi məlumatı əlverişli şəkildə əldə etmək;
- bütün səviyyəli hakimiyyət orqanlarına xidmətlərin əldə edilməsi üçün ərizə və sənədləri təqdim etmək;
- ərizənin, həmçinin şikayətlərin araşdırılmasının statusu haqqında aktual olan məlumatları əldə etmək;
- bir sıra dövlət və bələdiyyə xidmətlərinin (şəxsi iştirakı tələb etmədən, «imza verməklə» əldə edilməsi mümkün olan xidmətlərin) nəticələrini əldə etmək;
- dövlət və bələdiyyə müəssisələri haqqında məlumat almaq;
- bu və digər həyat vəziyyətinə düşdüyünüzdə əlavə hansı xidmətləri əldə edə biləcəyinizi bilmək. Portalda olan xidmətlər həmçinin dövlət və bələdiyyə xidmətlərinin çeşidi şəkilində qruplaşdırılıb, bu cür xidmətlər bir çox halda müxtəlif «həyat vəziyyətində» əldə edilir («köçmə, miqrasiya», «pensiya yaşına çatma» və s.)
- dövlət və bələdiyyə qulluqçularının hərəkətlərindən şikayət vermək.

## 3 Servisdən necə istifadə etmək olar?

Dövlət və bələdiyyə xidmətini əldə etmək üçün səhifədə elektron formalara şəxsi məlumatları daxil etməklə Portalda qeydiyyatda durmaq lazımdır. Bir çox hallarda insanlar özləri haqqında məlumatları İnternetdə saxlamağı qorxurlar. Portalda qeydiyyatın zəruriyyəti, sizin adınızdan başqa kiminsə yox, məhz sizin özünüzün dövlətlə qarşılıqlı əlaqədə olmağınızı təsdiq edilməsi məqsədini daşıyır.

Dövlət və bələdiyyə xidmətlərinin Portalında qeydiyyat yalnız əgər siz xidmətləri elektron şəkildə əldə edilməsini planlaşdırırsınızsa lazımdır və əgər siz xidmətlər haqqında məlumatı əldə etmək istədiyiniz halda qeydiyyat tələb olunmur.

## Dövlət və bələdiyyə xidmətlərinin Portalına Giriş

- «gosuslugi.ru» ünvanı üzrə

## Xarici vətəndaşlar üçün portalda qeydiyyat

- «Qeydiyyat» bölməsində «Xarici vətəndaşların qeydiyyatı» alt bölümünü seçin

## Elektron formalara fərdi məlumatların daxil edilməsi:

- İlk öncə siz Portalın iş qaydası ilə tanış olduğunuzu təsdiq etməyiniz lazımdır, bundan sonra aşağdakıları daxil etmək: 1-fərdi məlumatlarınızı (S.A.A., təvəllüdü, şəxsiyyəti təsdiq edən sənədlərin rekvizitləri); 2-əlaqə məlumatları (telefon nömrəsini,elektron poçt qutusunun ünvanını)
- Daxil edilən məlumatların həqiqətə uyğun olması vacibdir, elektron poçt ünvanı fəaliyyət göstərən olmalıdır, sizin poçt qutusuna giriş imkanınız olmalıdır.

## Aktivasiya kodunun alınması və Portala giriş

- Aktivasiya kodu, qeydiyyat zamanı göstəriyiniz elektron poçt ünvanına göndərilir. Portala giriş üçün login sətirində elektron poçt ünvanınızı yazılması və aktivasiya kodunu daxil etmək lazımdır.

## Portalın istifadəçisinin olduğu yerinin ayarlanması

- Portalda olan bütün xidmətlər ərazi bağlılığına malikdir, bu səbəbdən servisin imkanlarından istifadə üçün ilk addım olduğunuz yerin seçilməsidir. Bunun üçün xüsusi siyahı vasitəsilə olduğunuz regionu, yaşayış məntəqəsini seçmək lazımdır.

## Lazimi xidmətin seçilməsi

- Portalda olan bütün xidmətlər üçün üsulda təqdim edilmişdir: kateqoriyalar üzrə, qurumlar üzrə və həyat vəziyyətindən asılı olaraq. Üçüncü üsul ən sadə üsul hesab edilir, hansı qurum bu və ya digər

xidməti göstərdiyi haqqında xüsusi biliklərin olmasını tələb etmir. Bu halda tələbatı daha dəqiq formalaşdırmaq və “Həyat vəziyyəti” zəruri kateqoriyanı seçmək kifayətdir. Həmçinin “Əldə edənlər kateqoriyasında” “Xarici vətəndaşlar” qrafasını seçə bilərsiniz, bu da xarici vətəndaşlarının əldə edə biləcəyi uyğun xidmətlərin seçilməsinə imkan verəcək.




## Xidmət haqqında məlumatın alınması

Dövlət və bələdiyyə xidmətlərinin portalı aktual informasiya-sorğu resursudur, burada siz sizi maraqlandıran xidmətlərin qayda və prosedurları haqqında bütün istənilən məlumatı ala bilərsiniz. Xidmətlər səhifəsinə keçdiyi zaman, bu səhifənin hansı istifadəçilər (fiziki şəxslər, xarici vətəndaşlar, hüquqi şəxslər və s.) kateqoriyası üçün nəzərdə tutulduğunu, xidmətin hansı hakimiyyət orqanı tərəfindən təqdim edildiyini, xidmətin hansı müddətlər ərzində təqdim ediləcəyi, ödənişli olub-olmaması haqqında və s. məlumatları ala bilərsiniz. Həmçinin burada doldurulması üçün sənədlərin hazır formalarını yükləyə bilərsiniz, bu halda doldurulmuş sənədləri hakimiyyət orqanına, bu orqanı şəxsən ziyarət etmək təqdim edə bilərsiniz.

Bundan başqa, Portalda faydalı praktiki məlumatlar, "Sual-cavab" rubrikasında olan ekspertlərin konkret xidmətlər üzrə kommentariyaları yerləşdirilib. Dəqiqləşmələrin və məsləhətlərin əldə olunması üçün bütün sutka ərzində qaynar telefon nömrəsi fəaliyyət göstərir (8-800-100-70-10). İstifadəçilər üçün geriyə əlaqə forması vasitəsilə resursun işi üzrə öz təklif və arzularının göndərilməsi mümkündür.

Diqqət verin ki, xidmətlər haqqında məlumatların əldə olunması üçün qeydiyyat tələb olunmur.

## Xidmətlərin elektron şəkildə əldə edilməsi

**1-ci addım**
Xidmətlər reyestrində dövlət və ya bələdiyyə xidmətinin seçilməsi

**2-ci addım**
həmin xidmətin təqdim edilməsi qaydaları haqqında məlumatla tanış olunması

**3-cü addım**
Lazımi sənədlərin hazırlanması, elektron formaların və ya hazır blankların doldurulması, dövlət rüsumunun ödənilməsi

**4-cü addım**
Xidmətin alınması üçün ərizənin göndərilməsi, nəticələrin alınmasını gözləmək

**5-ci addım**
Xidmətin nəticəsini elektron şəkildə və ya əgər bu xidmət haqqında şərtləndirilibsə, hakimiyyət orqanına müraciət edilərkən şəxsən alınması

## Perm diyarının dövlət və bələdiyyə xidmətlərinin Portalı

1

**www.gosuslugi.permkrai.ru**

Что такое Портал государственных и муниципальных услуг Пермского края

Perm diyarının dövlət və bələdiyyə xidmətlərinin Portalı, xüsusi olaraq Perm diyarının icra hakimiyyəti orqanları və yerli özünü idarəetmə orqanları tərəfindən göstərilən xidmətlər üçün yaradılmışdır.




## 2 Perm diyarının dövlət və bələdiyyə xidmətlərinin Portalı hansı üstünlüklər verir?

*Perm diyarının dövlət və bələdiyyə xidmətlərinin portalı aşağıdakılardan yararlanmağa imkan verir:*

- Perm diyarının icra hakimiyyəti orqanlarının və Perm diyarının yerli özünü idarəetmə orqanlarının bələdiyyə xidmətləri haqqında məlumatları almağı (o cümlədən lazımi sənədlər, ərizə blankları, xidmətlərin dəyəri, xidmətlərin göstərilmə müddətləri və s. haqqında);
- dövlət hakimiyyəti orqanlarının və yerli özünü idarəetmə orqanlarının telefon nömrələrini və ünvanlarını öyrənmək;
- xidmətlərin əldə edilməsi üçün Perm diyarının icra hakimiyyəti orqanlarına və yerli özünü idarəetmə orqanlarına ərizə və sənədləri təqdim etmək.

## 3 Perm diyarının dövlət və bələdiyyət xidmətlərinin portalından necə istifadə etmək olar?

Perm diyarının dövlət və bələdiyyə xidmətləri Portalının iş prinsipi, Dövlət və bələdiyyə xidmətləri Vahid portalının iş prinsipi kimi qurulur (Dövlət

xidmətlərinin Vahid portalının nə olduğunu səhifə 5-də baxın).

Perm diyarı Dövlət və bələdiyyə xidmətləri Portalı Dövlət xidmətləri Vahid portalına inteqrasiya edilib və tərəfinizdən bu və ya digər xidmət seçilərkən avtomatik olaraq Vahid portala yenidən yönəldiləcəksiniz (Dövlət xidmətləri Vahid portalında necə qeydiyyata durmaq üçün səhifə 6-ya baxın).

## Perm diyarının Vahid tibb Portalı

**www.k-vrachu.ru**

### 1 Perm diyarının Vahid tibb portalı nədir?

Perm diyarının Vahid tibb Portalının yaranmasının əsas məqsədi Perm diyarında olan poliklinikaların həkimlərin qəbuluna planlı qeydiyyatın aparılmasıdır.

Diqqət yetirin ki, Perm diyarının Vahid tibb Portalı vasitəsilə yalnız planlı qəbulun qeydiyyatı həyata keçirilir. Rusiyada təcili tibbi yardım bu ölkənin ərazisində olan hamısına, məcburi tibbi sığorta şəhadətnaməsi olmadan, pulsuz və təxirə salınmadan göstərilir. Təcili tibbi yardım briqadasını: stasionar telefon vasitəsilə - 03 nömrəsini, mobil telefondan – 103 nömrələrini yığmaqla zəng edib çağırmaq olar.

### 2 Perm diyarının Vahid tibb Portalı hansı üstünlüklər verir?

Perm diyarının Vahid tibb Portalının servislərinin istifadəsi hansı aşağıdakı imkanlardan yararlanmağa imkan verir:

- lazımi tibb mütəxəssisinin planlı qəbuluna məsafədən yazılmaq, yəni poliklinikanı ziyarət etmədən və bu halda poliklinikanı ziyarət etmək üçün əlverişli vaxtın seçilməsi;
- səhiyyə müəssisəsi haqqında lazımi məlumatı əldə etmək (iş qrafiki, ünvanı, əlaqə məlumatlarını).
- Portalda göstərilən telefon nömrəsi üzrə qeydiyyat şöbəsinə zəng etməklə qəbula yazılmaq.

# 3

## Perm diyarının Vahid tibb Portalından necə istifadə etmək olar?

### Perm diyarının Vahid tibb portalına Giriş

kvrachu.ru ünvanı vasitəsilə

### Portalda qeydiyyat

«Qeydiyyat» bölməsinə daxil olun. Elektron poçt ünvanınızı daxil edin (gələcəkdə bu elektron ünvanınız Portalda avtorizasiya üçün istifadə ediləcək). Giriş imkanınız olduğu elektron poçt ünvanını daxil edin, gələcəkdə bu elektron ünvanı Portalda avtorizasiya üçün istifadə ediləcək. Uzunluğu 4-dən 16 simvoladək olan parol daxil edin, bu parolu yazmaq və ya yadda saxlamaq lazımdır, çünki bu parol portala daxil olmaq üçün lazımdır

### Qeydiyyat zamanı ünvanı göstərilən poçt qutusuna daxil olmaq

Şəxsi hesabınızı aktiv etmək üçün daxil olan məktubda göstərilən istinad ünvanı üzrə keçin. İstinad ünvanı üzrə keçdikdən sonra Siz şəxsi kabinetinizə daxil olacaqsınız.

### Portalda avtorizasiya

Şəxsi kabinetinizə daxil olduqdan sonra məcburi tibbi sığorta şəhadətnaməsinin nömrəsini daxil etmək lazımdır və qeydiyyatda olduğunuz və ya qeydiyyatda durmaq istədiyiniz poliklinikanı seçin (bunu yaşadığınız yer üzrə lazımi mütəxəssisə yazılmağınız üçün etmək zəruridir).

İlk olaraq, qiyabi olaraq, kartotekada yalnız bir adam göstəriləcək – bu adam Sizsiniz. Digər istifadəçiləri kartotekaya istəyinizə uyğun olaraq əlavə edə bilərsiniz.

# Həkim qəbuluna yazılmaq

Qeydiyyatdan keçdikdən sonra Siz həkimlərin planlı qəbuluna yazıla bilərsiniz. Diqqət yetirin ki, Perm diyarının Vahid tibb Portalından yalnız planlı qəbula yazılması həyata keçirilir.

## Xidmətlərin elektron şəkildə əldə olunması sxemi.

**1 addım**
Pasientin kartoteka-dan seçilməsi

→

**2 addım**
Müəssisənin mütəxəssisinin seçilməsi

→

**3 addım**
Qəbul vaxtının seçilməsi



**Единый медицинский портал Пермского края**
оказания государственных услуг

Регистрация Помощь / Документы Вх

К врачу | Расписание | Лекарства | Мед. учреждения

Система предназначена для записи пациентов на ПЛАНОВЫЙ прием к врачам поликлиник Пермского края.
При необходимости экстренного обращения к врачу обратитесь непосредственно в поликлинику по месту жительства.
При возникновении неотложных состояний, требующих срочного оказания медицинской помощи, обратитесь в Скорую медицинскую помощь.

Вход в систему

Логин или e-mail:

Пароль:

Не спрашивать при следующем входе

Войти | Регистрация

Забыли пароль?

Демонстрационный вход
Логин : demo
Пароль : demo

**Нормативно-правовые документы:**

- Федеральный закон 323-ФЗ от 21 ноября 2011 года «Об основах охраны здоровья граждан в Российской Федерации»
- Закон № 143-ПК от 25 декабря 2012 «О программе государственных гарантий оказания населению Пермского края бесплатной медицинской помощи на 2013 год»
- Приказ Министерства здравоохранения Пермского края от апреля 2012 г. N СЭД-34-01-06-156 «Порядок выбора гражданином медицинской организации и врача для получения первичной медико-санитарной помощи в рамках Программы государственных гарантий бесплатного оказания гражданам медицинской помощи в амбулаторно-поликлиничеких условиях»

О сервисе

Система предназначена для записи пациентов на прием к врачам поликлиник Пермского края.

Проект «Электронная регистратура» направлен на повышение доступности медицинской помощи и включает в себя возможность записаться на прием к врачу следующими способами:

по телефону
Верещагинский р-н (34254) 3-20-50;
г. Александровск (34274) 3-72-73;
г. Березники (3424) 27-40-40;
г. Губаха (34248) 4-80-02;
г. Добрянка (34265) 3-99-90;
г. Кизел (34255) 4-47-44;
г. Кудымкар (34260) 4-33-16;
г. Кунгур (34271) 2-50-55;
г. Лысьва (34249) 6-60-70;
г. Пермь (342) 263-11-36 или 8-800-3000-300;
г. Соликамск (34253) 4-84-10;
г. Чайковский (34241) 2-22-00;
г. Чусовой (34256) 5-96-60;
Карагайский р-н (34297) 3-26-90;
Краснокамский р-н (34273) 4-09-29;
Нытвенский р-н (34272) 2-00-77;
Осинский р-н (34291) 4-70-60;
Оханский р-н (34279) 3-00-00;
Очерский р-н (34278) 3-21-91;
Чердынский р-н (34240)2-87-39;
Чернушинский р-н (34261) 4-66-88;
через Интернет;
через регистратуру поликлиники.

Услуга является бесплатной и является частью реализации проекта «Электронная регистратура».
Проект реализован органами управления здравоохранением Пермского края.

Подробней

## Vergi ödəyicisinin elektron kabineti

1

www.lk2.service.nalog.ru

### Vergi ödəyicisinin elektron kabineti nədir?

Rusiya Federasiyasının Federal vergi xidməti (Rusiya FVX) vaxt itkisinin aşağı salınması və vergi qurumu ilə qarşılıqlı əlaqələrin rahatlığının yüksəldilməsi üçün vergi ödəyiciləri üçün – “Fiziki şəxslər üçün vergi ödəyicisinin şəxsi kabineti” servisini işləyib hazırlamışdır. Bu servis vergi ödəyicilərinə Rusiya FMX-nin www.nalog.ru ünvanında, https://lk2.service.nalog.ru/lk/ ünvanında olan “Elektron xidmətlər” bölməsində yerləşdirilmiş xidmətlərindən istifadə etməyə imkan verir.

2

### Vergi ödəyicisinin Elektron kabineti hansı üstünlüklərdən yararlanmağa imkan verir?

«Fiziki şəxslər üçün vergi ödəyicisinin şəxsi kabineti» vergi ödəyicisinə aşağıdakı üstünlüklər verir:

- əmlak haqqında, hesablanmış və ödənilmiş vergi ödənişləri haqqında aktual məlumatı almaq;
- büdcə ilə hesablaşmaların vəziyyətinə nəzarət etmək, o cümlədən borcları izləmək;
- hesabları və qəbzləri almaq və çap etmək;
- vergi borcunu ödəmək və vergi ödənişlərini yerinə yetirmək;
- məsafədən vergi orqanları ilə ünsiyyət qurmaq.

3

### Vergi ödəyicisinin şəxsi kabinetindən necə istifadə etmək olar?

«Fiziki şəxslər üçün vergi ödəyicisinin şəxsi kabineti» servisinə giriş qeydiyyat kartında göstərilən loqin və parolun köməyi ilə həyata keçirilir.

## Qeydiyyat kartını necə almaq olar

- qeydiyyat kartını əldə etmək üçün şəxsiyyəti təsdiq edən sənədlə və vergi uçotuna qoyulması haqqında şəhadətnamə (VÖEN) ilə birlikdə istənilən vergi müfəttişliyinə müraciət etməyiniz lazımdır. Əgər yaşadığınız yer üzrə vergi müfəttişliyinə müraciət edirsinizsə bu halda yalnız pasportun təqdim edilməsi kifayətdir.
- Qeydiyyat kartını siz həmçinin «Dövlət və bələdiyyə xidmətlərinin təqdim edilməsinin Çox funksiyalı mərkəzi» nə şəxsiyyəti təsdiq edən sənədlə və vergi uçotuna qoyulması haqqında şəhadətnamə (VÖEN) ilə birlikdə müraciət etməklə əldə edə bilərsiniz.
- Həmçinin Rusiya FVX-nin saytında (www.nalog.ru) loqin və parolun əldə edilməsi üçün onlayn-sifarişi vermək mümkündür (bu halda ərizənin xarici vətəndaş tərəfindən verildiyini qeyd etmək vacibdir), lakin istənilən halda müfəttişliyə şəxsi ziyarətiniz tələb olunur.

«Fiziki şəxslər üçün vergi ödəyicisinin şəxsi kabineti» servisinə daxil olmaq üçün həmçinin elektron rəqəmsal imzanın köməyi ilə mümkündür. Elektron imza Rusiya Rabitə və Kütləvi kommunikasiyalar Nazirliyi tərəfindən akkreditasiya edilmiş Təsdiqedici mərkəz tərəfindən verilməlidir və istənilən daşıyıcı üzərində saxlanıla bilər: sərt disk, USB-açar, Universal elektron kart və ya smart-kart üzərində saxlanılır. Universal elektron kartının necə əldə etmək olduğunu səhifə 20-də baxa bilərsiniz.

## Vergi ödəyicisinin Şəxsi kabineti saytına giriş

- www.lk2.service.nalog.ru ünvanı üzrə

## Vergi ödəyicisinin Şəxsi kabinetində qeydiyyat

- Qeydiyyat kartının ikinci səhifəsində göstərilən loqinin (VÖEN) və parolun daxil edilməsi.

## Parolun yenisinə dayişdirilməsi

Bunu ondan ötrü etmək lazımdır ki, qeydiyyat kartında göstərilən parol yadda saxlanması üçün mürəkkəbdir, eləcə də

avtomatik olaraq formalaşdırılıb və hərif, rəqəm və işarələrdən ibarətdir (30 gündən sonra ilkin parol bloklaşdırılacaq və Şəxsi kabinetə giriş qadağan ediləcək).



ФЕДЕРАЛЬНАЯ НАЛОГОВАЯ СЛУЖБА

Личный кабинет налогоплательщика

Интернет-сервис «Личный кабинет налогоплательщика для физических лиц» позволяет налогоплательщику:

- получать актуальную информацию об объектах имущества и транспортных средствах, о суммах начисленных и уплаченных налоговых платежей, о наличии переплат, о задолженности по налогам перед бюджетом;
- контролировать состояние расчетов с бюджетом;
- получать и распечатывать налоговые уведомления и квитанции на уплату налоговых платежей;
- оплачивать налоговую задолженность и налоговые платежи;
- скачивать программы для заполнения декларации по налогу на доходы физических лиц по форме № 3-НДФЛ, заполнять декларацию по форме № 3-НДФЛ в режиме онлайн, направлять в налоговую инспекцию декларацию по форме № 3-НДФЛ в электронном виде, подписанную электронной подписью налогоплательщика;
- отслеживать статус камеральной проверки налоговых деклараций по форме № 3-НДФЛ;
- обращаться в налоговые органы без личного визита в налоговую инспекцию.

Доступ к сервису «Личный кабинет налогоплательщика для физических лиц» осуществляется одним из двух способов:

- С помощью логина и пароля, указанных в регистрационной карте. Получить регистрационную карту вы можете лично в любой* инспекции ФНС России, независимо от места постановки на учет. При обращении в инспекцию ФНС России по месту жительства при себе необходимо иметь документ, удостоверяющий личность. При обращении в иные инспекции ФНС России при себе необходимо иметь документ, удостоверяющий личность, и оригинал или копию свидетельства о постановке на учет физического лица (свидетельство о присвоении ИНН)/уведомления о постановке на учет. Получение доступа к сервису для лиц, не достигших 14 лет, осуществляется законными представителями (родителями, усыновителями, опекунами) при условии предъявления свидетельства о рождении (иного документа, подтверждающего полномочия) и документа, удостоверяющего личность представителя. В сервисе предусмотрена возможность подачи онлайн-заявления на подключение к услуге для последующей регистрации в сервисе при личной явке.

  Если логин и пароль были Вами получены ранее, но Вы их утратили, следует обратиться в любую* инспекцию ФНС России с документом, удостоверяющим личность, и (при обращении в инспекцию ФНС России, отличную от инспекции по месту жительства) оригиналом или копией свидетельства о постановке на учет физического лица (свидетельство о присвоении ИНН)/уведомления о постановке на учет.

- С помощью квалифицированной электронной подписи/Универсальной электронной карты. Квалифицированный сертификат ключа проверки электронной подписи должен быть выдан Удостоверяющим центром, аккредитованным Минкомсвязи России и может храниться на любом носителе: жестком диске, USB-ключе, Универсальной электронной карте или смарт-карте. При этом требуется использование специального программного обеспечения-криптопровайдера: CryptoPro CSP версии 3.6 и выше.

  Для корректной авторизации в сервисе рекомендуем использовать квалифицированный сертификат ключа проверки электронной подписи, соответствующий положениям приказа ФНС России от 08.04.2013 № ММВ-7-4/142.

Вход в Личный кабинет

Логин (Ваш ИНН):

Пароль:

Запомнить логин

Войти

Ознакомиться с функциональными возможностями сервиса «Личный кабинет налогоплательщика для физических лиц» Вы можете на тестовом примере. Для этого необходимо ввести: логин – 000000000000 (двенадцать нулей), пароль – произвольный.

Вход/регистрация с помощью ключа электронной подписи

«Fiziki şəxslər üçün vergi ödəyicisinin şəxsi kabineti» servisindən başqa, Rusiya FVX rusiya təşkilatları olan – hüquqi şəxslər üçün nəzərdə tutulan «Hüquqi şəxsin Şəxsi kabineti» ni servisini istifadəyə verirdi. Bu servisin köməyi ilə hüquqi şəxslər vergi xidmətinin müxtəlif xidmətlərini əldə edə biləcəklər (məsələn, sorğular vermək və vergilər, yığımlar, peniyalar, cərimələr, faizlər və s. üzrə hesablaşmaların vəziyyəti haqqında arayış almaq).

## Perm diyarının məşğulluq xidmətinin İnternet-ofisi

**www.i-szn.ru**

### 1 Perm diyarının məşğulluq xidmətinin İnternet-ofisi nədir

Perm diyarının əhalinin məşğulluğu üzrə agentliyi əhalinin məlumatlandırılması məqsədilə məşğulluq xidmətinin İnternet-ofisinin işini təşkil etmişdir. Servis həm iş axtaran şəxslər üçün, həmçinin işəgötürənlər üçün nəzərdə tutulub.

### 2 Perm diyarının məşğulluq xidmətinin İnternet-ofisi hansı üstünlükləri verir?

Perm diyarının məşğulliq xidmətinin İnternet-ofisi aşağıdakı imkanları verir:

- Məşğulluq Mərkəzləri tərəfindən göstərilən dövlət xidmətləri haqqında məlumatları almaq;
- əmək hüquqları və əmək bazarında olan vəziyyət haqqında faydalı məlumat almaq;
- Perm diyarının Məşğulluq Mərkəzlərinin ünvanlarını və telefonlarını əldə etmək;
- «Vakansiya yarmarkaları», «Təhsil yerləri yarmarkaları», tarixi və vaxtı haqqında, Məşğulluq Mərkəzlərinin mobil ofislərinin işi haqqında məlumat almaq;
- işsizliyə görə ödənilən müavinətin həcmini hesablamaq.

Servis inkişaf mərhələsindədir, xidmətlər çeşidinin tədricən artırılması nəzərdə tutulur.

## 3 Perm diyarının məşğulluq xidmətinin İnternet-ofisindən necə istifadə etmək olar?

Məşğulluq xidmətinin İnternet-ofisi ilə işləmək üçün yaddaş kitabçasının nəşri zamanına qeydiyyat tələb olunmur.

Qeydiyyatın tətbiqi, bu servisin köməyi ilə almaq mümkün olduğu xidmətlər çeşidi artırıldıqda gələcəyə planlaşdırılıb.




# Universal elektron kart (UEK)

**www.uecard.ru**

## 1 Universal elektron kart nədir?

Universal elektron kart – dövlət, bələdiyyə və kommersiya xidmətlərinin əldə olunması üçün açardır. Bu kart üzərində istifadəçi haqqında qrafik və elektron formada informasiyası olan material daşıyıcıdır (plastik kartdır). UEK kart vasitəsilə istifadəçi haqqında məlumatı əldə etməyə və istifadəçi

tərəfindən dövlət, bələdiyyə və sosial xidmətlər alındığı zaman onu müəyyən etməyə imkan verir.

Universal elektron kart özündə aşağıdakıları birləşdirir:

- şəxsiyyəti təsdiq edən sənəd (qanunla müəyyən olunmuş hallarda);
- məcburi tibbi sığorta şəhadətnaməsini (MTSŞ);
- məcburi pensiya sığortasının sığorta şəhadətnaməsini (MPSSŞ)
- bank kartını;
- xidmətlərin əldə edilməsi üçün elektron şəkildə eyniləşdirmə məlumatlarını.

## 2 Universal elektron kart hansı üstünlüklər verir?

Universal elektron kartının köməyi ilə dövlət, bələdiyyə və sosial xidmətləri elektron şəkildə əldə etmək mümkündür. Kartın bank hesabına bağlılığı ondan ödəniş vasitəsi kimi istifadə etməyə imkan verir. Kart vasitəsi ilə əmək haqqı və pensiya almaq, onun vasitəsilə vergiləri və cərimələri ödəmək, bank xidmətlərindən (MKT-ı xidmət haqlarını, biletlərin dəyərinin, rabitə haqqlarının, mağazada alış-verişin ödənilməsi də daxil olmaqla) istifadə etmək olar və s. Kart çox əlverişlidir, çünki sənədləri kağız şəkilində özünüzlə daşımağı minimuma endirir, bütün bu sənədlər artıq kartın üzərində var.

## 3 Universal elektron kartdan necə istifadə etmək olar?

UEK istifadəçiləri RF-nın vətəndaşları və xarici dövlətlərin vətəndaşları olan fiziki şəxslər ola bilərlər.

*Yaddaş kitabçasının nəşri vaxtı Universal elektron kart yalnız Rusiyanın vətəndaşlarına verilməsi həyata keçirilir.*

### Universal elektron kartının alınması üçün ərizənin verilməsi

Ərizəni vermək üçün regionunuzdakı UEK-nın verilməsinə Səlahiyyətli təşkilata müraciət edin, təşkilatın yerləşdiyi yeri siz UEK-nın saytında (uecard.ru) "Təqdim etmə nöqtələri" bölməsində öyrənə bilərsiniz. Müraciət etdiyiniz zaman özünüzlə şəxsiyyəti təsdiq edən sənədi və (əgər varsa) sığorta şəhadətnaməsini və vergi ödəyicisinin eyniləşdirmə nömrəsini götürməyiniz lazımdır. UEK-nın rəsmiləşdirilməsi haqqında ərizə ilə bərabər həmçinin

bank hesabının açılması haqqında ərizənidə təqdim etmək lazımdır (təqdim edilmiş banklar siyahısından).

## Universal elektron kartının alınması

Hazır Universal elektron kartını aldığınız zaman, kartın özünün və pin-kodunun olduğunu yoxlamaq, bu pin-kodlar arasında fərdi məlumatlara giriş üçün və bank hesabına giriş üçün pin-kodların olması mütləqdir.

## Universal elektron kartdan istifadə

Universal elektron kartı aşağıdakılar üçün istifadə edilir:
- dövlət, bələdiyyə və sosial xidmətlərin alınması üçün;
- malların və kommersiya xidmətlərinin dəyərini;
- pensiyaların, sosial müavinətlərin və s. alınması.





## GRANİ MƏRKƏZININ İNTERNET RESURLARıNı ZIYARƏT ETMƏYƏ DƏVƏT EDIRIK

http://grany-center.org - GRANİ Mərkəzinin saytı. Bu media kitabxanası aktiv vətəndaşlar, qeyri kommersiya təşkilatları və təşəbbüs qrupu üçün nəzərdə tutulub – tədbirlərin anonsları, prezentasiyalar və metodiki tövsiyələr, aktual layihələr haqqında məlumatlar, aparılmış müstəqil vətəndaş ekspertizalarının, monitorinqlərin və tədqiqatların nəticələri, eləcə də şəhərin, regionun və ölkənin aktual ictimai gündəmini formalaşdıran mövqeli materiallar kütləsi.

http://migrant.grany-center.org - GRANİ Mərkəzinin layihəsi "Müasir dövlət – savadlı miqrant". Sayt Rusiyada dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi sistemi ilə daha yaxşı tanış olmağa kömək edir, eləcə də miqrantlara, əlavə xərclər çəkmədən "addım və addım" müxəlif xidmətlərin alınmasında kömək edir. Sayt bir neçə miqrantların doğma dillərindədir.

http://hellocity.pro/ - GRANİ Mərkəzinin bloqu "HelloCity" şəhərindəki həyat haqqındadır. Produktiv şəhər təşəbbüsləri, servisləri, "üçüncü" yerləri, layihələr və aksiyalar, aktual ideyalar – bunlar hamısı bloqda prezentasiya edilir.

Фонд «Центр гражданского анализа
и независимых исследований ГРАНИ», 2014.